# “Dəmir daban”ın gücü



Tarixin çətin dövrləri yaradıcı adamlara mane olur, amma ən yaxşı ideyalar da elə bu dövrlərdə cücərir. Kitabxanalarda yeni gələn nümunələrə nəzər salın. Bugünün yazarlarının ideyaları ilə post-müharibə dövrü nəslinin bəşəri düşüncələri arasında çox böyük fərq var. İlk nəşrindən bir əsr keçməsinə baxmayaraq, Cek Londonun ”Dəmir daban” (”The iron heel”) romanının sosializm, kapitalizm, totalitarizmin bir məfhum kimi əhəmiyyətinin qalmadığı bu günlərdə belə aktual olmasının səbəbi də məhz bu bəşərilik amilidir. Bəli, bu roman yuxarı sinfin aşağı sinfi əzdiyi texnikanın, fikir və vicdan azadlığına qoyulan qadağaların, informasiya monopoliyasının, sıravi vətəndaşın ən böyük qorxusuna çevrilmiş hərbi gücün, iqtisadi hegemonluğun müsibətlərinə köklənsə də, 110 illik aktuallığın səbəbləri bunlardan hansısa biri deyil.

XXI əsrin oxucusunda dərin emosional izlər qoyan terrorizm, soyuqqanlı maliyyə divlərinin zülmü və bu zülmə məruz qalanlar da deyil. ”Dəmir daban” bütün dövrlərin ”əlil ruhları”na çəkilmiş sığaldır. Siyasi roman, didaktik təhkiyə, yeni fəlsəfi axın ideyası, başqa bir idarəetmə sistemi, həyatın özündən də böyük dramlar, film fraqmentlərindən daha canlı təsvirlər - bunlar təkcə Cek London romanları üçün yox, dünya ədəbiyyatında minlərlə roman üçün xarakterik ümumiləşdirmələrdir. Müəllif hadisələri bəsit bir ideyadan uzaq tutmaq üçün xüsusilə, insan amilinə köklənir. Burada hadisələr rejim, zümrələr, pul, rüşvət, zülmün fonunda təsvir olunmur. Cek London ”Dəmir daban”ı bütövlükdə insan amili və onun ”qüsurlu” mənəviyyatının nəticəsi kimi gördüyü ümidsiz gələcəyin fonunda yazıb. Hərçənd, romanın ümidsiz sonla bitdiyi fikrini rədd edənlər də az deyil.

Romanın ilk əlyazma versiyasında adının ”Oliqarxiya” olduğu da bu fikri tamamlayan bir faktdır. Çünki bu, yuxarı sinfin bədxah elan edildiyi roman deyil. Müəllifin hər bir qəhrəmanı xüsusi hadisələrin müşayiəti ilə açılır. Əqidəsində, mənəvi dünyasında, ruhunda ləkə olan, pula və mövqeyə önəm verdiyi üçün bütün insani keyfiyyətlərdən üz döndərənlər işçi sinfində də, oliqarx sinfində də var. Cek Londonun ”Dəmir daban”dakı əsas hədəfi və romana əbədiyaşarlıq qazandıran əsas ideya məhz insan amilinin bütün laylaları ilə açılmasıdır. Dünya ədəbiyyatının ən çox satılan romanlarından biri olmasının səbəbi də elə budur - oxucu bəlkə özünün də tanımadığı simaları ilə qarşılaşır, situasiyalarda özünü təsəvvür edir, necə davranacağını düşünür, bir növ özünü öz süzgəcindən keçirir. Bəli, 1900-cü illərdə yaşayanların psixoloji vəziyyəti, apardıqları mənəvi mübarizələr, şübhələri, qorxuları, səhvləri, imtinaları, etik dəyərləri, vəhşi ehtirasları ilə kürənin çağdaş sakinlərinin anoloji statusu müqayisə də oluna bilməz. Amma, məsələn, ”ailəm” var səbəbilə haqsızlığa göz yummağı, həqiqətlər haqq-hesab olunanda susmağı seçən, hətta şərə, böhtana, oğurluğa, xaosa qarışan və ya təşviq edənlər bütün dövrlərdə humanizm probleminin nüvəsində dayanıb. Niyəsə humanizmdən danışanda idarəedici sinfin həyat və düşüncə tərzi gündəmə gəlir. Belə olmadığını ”Dəmir daban”da Cek London oxucuya çatdırır.

Baş qəhrəmandan çox romantik, ideal varlıq kimi təsvir edilmiş Ernest Everhard obrazı ümidsiz bir utopiya romanı üçün uğursuz seçim kimi dəyərləndirilir. Lakin bu obraz belə qüsursuzluğu ilə müəllifin əsas məqsədinə xidmət edir - İdeal lider fiziki qüsurlular ordusu ilə meydandan qalib ayrıla bilər, amma qüsuru ruhunda olan ”sağlam” insanlarla yol qət edə bilməz. Baxmayaraq ki, Cek London bu xüsusiyyətləri dövrün insanlarına aid etdiyi, gələcəyin insanlarında bu tip keyfiyyətlərin olmayacağına inandığı üçün roman haqqındakı qeydlərində zaman, məkan məfhumunu xüsusilə qabardır: ”Bu dövrün insanlarında kölə ruhu var. Düşüncələri, duyğuları xaotik, təhlükəli və yalındır. Mənim qəhrəmanlarımın ümidsiz sabahı heç də düşünüldüyü qədər utopik deyil”.




Romanın bir hissəsində, sanki, müəllif özü də ümidə köklənir, öz xəyali dünyasını, başqa bir dövrdə yaşanacaqları təsvir edir. Lakin bu utopik dünya tezliklə yerini bəşəriyyəti ağuşuna almış həqiqətlərə verir - mənəvi dünyası barbarlıqdan qidalanan tiranların dünyanı sonsuz bir ümidsizliyə düçar edən nəhəng ”dəmir daban”ları nə azadlıq, nə seçim, nə də sevgi üçün bir işıq yeri qoyur. Yeri gəlmişkən, müəllifin romanın nəşrə getdiyi günlərdə həmkarı Con Qriffit Çeyniyə yazdığı məktubla fikrimizi aydınlaşdırmağa ehtiyac var: ”Bu sosializm xəyalımın romanı məni çox həyəcanlandırır. Görəsən, xəyal etdiyim sistem qurulana kimi bu hekayə yaşaya biləcəkmi? Hekayənin adını dəyişdim - ”Dəmir daban” olsun. Bu əzazil kapitalistlərin silahlarını daha ağır metalla da ifadə etmək olardı, amma estetik alınmazdı. Sadə insanların bu zülmdən xilas olduğu günləri görə biləcəyəm görəsən?”. Yaşadığı dövrdən 10, 20 il sonra yaşayacaq insanların həyatını bu qədər utopik, eyni zamanda bu qədər dəqiq qələmə almaq yəqin ki, ancaq Cek London kimi sadəcə ruhu ilə duyan, düşünən, davranan və yazan bir ədibə nəsib ola bilərdi.

London ABŞ-da siyasi hadisələrin irqçilik, məzhəb düşmənliyi, sosial bərabərsizlik problemindən uzaqlaşıb, qloballaşan, insan əleyhinə yönəlmiş oliqarx diktaturasına doğru istiqamət aldığını və bu dəyişiklik nəticəsində necə bir mühit yaranacağının təsvirini o qədər dəqiq verib ki, hekayənin 30-40 il əvvəl yazıldığına inanmaq olmur. ”Dəmir daban”ın dünya ədəbiyyatında ilk sosio-iqtisadi, siyasi-bədii nümunə olduğunu nəzərə alınsa, romanda əks olunan hadisələrin müəllifin sosial mövqeyindən, siyasi təcrübə və nəzəriyyəsindən ayrı təhlil edilməməyini anlayışla qarşılamaq mümkündür.

Keçmişin, bu günün və gələcəyin çoxpilləli, eyni zamanda bütün hissələri bir hədəfə doğru yol alan romanı ”Dəmir daban”da hadisələr kapitalist qızı, sosialist sevgilisi Avis Kanninqamın dili ilə təhkiyə edilir. Romanın əvvəlində hadisələr ideyaların və sistemlərin nəzəri müqayisəsi, müzakirəsi ilə başlayır. Sonrakı hissələrdə çıxışlar, müzakirələr arzuolunan nəticəni vermədiyi üçün fiziki qarşıdurmalar və getdikcə böyüyərək inqilaba çevrilir.

Romandakı inqilab müəllifin sosializm ideyaları ilə istiqamətlənsə də, Cek Londonun özünün də təbliğ etdiyi sistem haqqındakı fikirləri dəqiq deyil. Sanki Avisi danışdıran, Ernestə nitqlər söylətdirən oxucunun tanıdığı Cek Londondan çox sosial ədalət axtarışları, ağ irqin mütləq hakimiyyətinin sorğulanması zamanı qarşısına çıxan konfliktli nəzəriyyələrin kokteylindən məst olmuş həvəskar filosof görürük. Bəli, bu romanda müəllifin ön plana çəkdiyi sosial-mənəvi evolusiya sosialist düşüncənin də zəminini təşkil edir. Lakin tez-tez müəllifin nəzəriyyələrarası konfliktlə siniflərarası konflikti ümumi müstəvidə həll etməyə çalışdığını görürük. Məhz buna görə də, ”Dəmir daban”ın qəhrəmanları üsyandan, qanlı mübarizədən keçməli olurlar. Halbuki, dünya tarixi kapitalist və ya sosialist sistemin bərqərar olması üçün müharibəyə ehtiyac duymadı və duymayacaq. Amma eyni sistemin içində siniflər arasında qanlı müharibələr baş verdi və bu prosesdə ”dəmir dabanlar” altında ”əzilməyə boyun əymək istəməyənlər” eynilə Ernestin tərəfdaşları kimi çətin sınaqlardan - təqiblər, dinlənmələr, təhdidlər, siyasi terror, mətbuat monopoliyası və s. - keçməli oldular. Təbii ki, bu mübarizələr heç də sistemləri dəyişmədi, sadəcə taxtların sahibləri dəyişdi. Əslində ”Dəmir daban”-da insan və mənəviyyat problemi xaricində bəşəriyyətin keçmədiyi bir yolun təsviri ilə qarşılaşmırıq. Cek London bu ənənəvi-tarixi döngünü siyasi sistemlərin təhlili ilə müasirləşdirib, nəzəriyyələrin müzakirəsi ilə dərinləşdirib, sadə insanların ağır dramı ilə bədiiləşdirib. Xüsusilə, Çikaqo küçələrində proletariatın kütləvi qətli səhnəsində müəllif Avisin dili ilə bütün nifrətini nümayiş etdirir. İtaliyan tənqidçi Alessandro Portelli isə məhz bu səhnələrdə təhkiyəçinin simasında gördüyümüz hiddətli tərzlə müəllifin Avisə verdiyi yaşamaq fürsətini uyğun hesab etmir: ”Bəli, dünənin hadisələrini nəql etmək üçün gələcəyi görən bir təhkiyəçi mütləqdir. Amma bu, minlərlə insanın öldüyü qətliamdan sağ çıxan üsyançı olmamalı idi. Məhz bu emosional monoloqları Entoni Mereditin şərhləri kimi oxuya bilərdik... Ernestin yolunda Cek Londonun ən dahiyanə hiyləsi emblematik obrazlardır - rahiblər, kapitalistlər, xırda sahibkarlar. Burada müəllifin məqsədi hər zümrəyə yaxın olduğu üçün güclü bənd kimi yüksələn baş qəhrəman yaratmaq deyil. Oxucunu nəhəng bir ölkənin vəziyyətini qaranlıq nöqtə qalmadan göstərməkdir. Hər sinfin fəlsəfi baxışları, güc anlayışı, əlaqələri, iqtisadi vəziyyəti öz üslubu ilə çatdırılıb. Eyni anda mövcud reallığın layihələşdirilmiş bir gələcəkdəki forması ilə müqayisəsi, zaman məfhumunu təsvirlərin gücü ilə sıfıra vurmaq, utopik ”lazım”ın oxucuda oyatdığı həyəcan ”Dəmir daban”-ı 120-yə yaxın alternativi arasında ilk pilləyə daşıyan xırda nüanslardır. Bəs, böyüklər hansılardır?

1. Teatral quruluşda geniş monoloq və dialoqlar
2. Oxucunun ağlına gələ biləcək insan tiplərinin hamısına həyat verilməsi
3. Həmkarlarından fərqli olaraq, müəllifin obrazlara əxlaqi oyunlar oynatmaması
4. Alleqorik adlar - Morehouse, Vikson, Mr.Kelvin, Mr.Oven və s.
5. Siyasi sistemlərdən, siniflərarası mübarizədən, fəlsəfi nəzəriyyələrdən, inqilabdan və tarixi hadisələrdən bəhs edilsə də, sənədli film kimi ekranlaşdırılmayacaq qədər bədii olması.
6. Utopik bir dünya yaradarkən, bir yandan da güclü realizm axınlarının sözünü deməsi
7. Müəllifin fərdi və sinfi mübarizədən bəhs edərkən, dövləti bir izləyici kimi canlandırmaqdan imtina edib, hadisələrin içinə çəkməsi.

Cek London yaradıcılığında çox güclü nümunələrin olduğu faktını nəzərə alıb, bu romanı sadəcə ”tanımaq” doğru yanaşma deyil. Bəli, mütaliə zamanı hər dəfə açıqlamalara baxmalı olmaq oxucunu yorur. Burada canlandırılan mübarizələr, faşizm və onun mədəniyyətləri yox etmək üsulları bu günün oxucusuna yad deyil. Amma müəllifin yaradıcılığında nəhəng bir inqilabın sütunlarından sayılan ikinci bir belə nümunə yoxdur. ”Dəmir daban”-ın Amerikadakı rejimə və iqtisadi inqilaba böyük təsiri danılmazdır.

Mənbə: ”New York Times” (”The Iron Heel” reworks a Jack London dystopia”), ”depauw.edu” (”Jack London's Missing revolution”), ”wsws.org” (”An enduring classic”), ”enotes.com”

**İngilis dilindən tərcümə edən və hazırlayan:**
**Elcan Salmanqızı**